DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!

AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!

# YAP-ın namizədi Elman Məmmədov seçicilərlə görüş keçirib





Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Elman Məmmədov parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdam rayonu, Mirzələr qış yatağında seçicilərlə ilk görüşünü keçirib.

Görüşdə çıxış edən YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev partiya tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Elman Məmmədovun ötən illər ərzində fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edilib ki, Elman Məmmədov Milli Məclisin deputatı kimi qanunvericilik aktlarının qəbulunda hər zaman fəallığı ilə seçilib, eyni zamanda, seçiciləri tərəfindən qaldırılmış problemlərin müsbət həlli istiqamətində səylərini əsirgəməyib.

Görüşdə çıxış edən deputatlığa namizəd Elman Məmmədov əvvəlcə ölkəmizin qazandığı böyük nailiyyətlər haqqında danışıb. O, YAP-ın Azərbaycan dövlətçiliyinin inkişafında mühüm xidmətlərini vurğulayıb, hazırda ölkəmizdə xalqla iqtidar arasında sarsılmaz birlik olduğunu deyib.

Tədbirdə çıxış edən seçicilər qarşıdan gələn parlament seçkilərində növbəti dəfə YAP-ın 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsi üzrə namizədi Elman Camal oğlu Məmmədova səs verəcəklərini bəyan ediblər.

# 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən YAP-ın namizədi Ceyhun Məmmədov seçicilərlə növbəti görüşünü keçirib





120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) namizədi Ceyhun Məmmədovun təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşləri uğurla davam edir. Bu silsilədən növbəti görüş Sabunçu rayonu Kürdəxanı qəsəbəsində baş tutub. C.Məmmədov Cəbrayıldan olan məcburi köçkünlərin evlərində olub, həyətlərdə sakinlərlə görüşüb.



Daha sonra seçicilərin iştirakı ilə keçirilən tədbirdə çıxış edən YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin ölkəmizə böyük nüfuz qazandırdığını və Azərbaycanın regionun lider dövlətinə çevrildiyini diqqətə çatdırıb. Qarşıdan gələn parlament seçkiləri haqqında danışan A.Fərzəliyev seçkilərdə YAP tərəfindən ən layiqli namizədlərin irəli sürüldüyünü qeyd edib.

Tədbirdə çıxış edən YAP-ın 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən namizədi Ceyhun Məmmədov seçki platforması haqqında geniş məlumat verib. C.Məmmədov Yeni Azərbaycan Partiyasının qurucusu Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində ölkəmizdə sabillik və əmin-amanlıq yaradıldığını, dərin islahatlar həyata keçirildiyini, xalqımıza firavan gələcək vəd edən iqtisadi uğurların təməllərinin qoyulduğunu, insan hüquq və azadlıqlarının təmin olunduğunu vurğulayıb. Ceyhun Məmmədov seçicilərin ona etimad göstərəcəyi təqdirdə ölkəmizin daha yüksək inkişafına və tərəqqisinə xidmət edən yeni qanunvericilik aktlarının hazırlanmasında iştirak edəcəyini nəzərə çatdırıb. Ceyhun Məmmədov həmçinin milli-mənəvi dəyərlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması işində, gənclərin milli vətənpərvərlik ruhunda yetişdirilməsində fəal iştirak edəcəyini də vurğulayıb.

Rayon Ağsaqqallar Şurasının sədr müavini Əyyub Quliyev, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə Ceyhun Məmmədov haqqında ümumi məlumat verərək, onun fəaliyyətini yüksək qiymətləndiriblər.

# YAP-ın 29 saylı Səbail seçki dairəsi üzrə namizədi Aytən Hüseynovanın seçicilərlə növbəti görüşü keçirilib





Fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) irəli sürdüyü namizədlərin seçicilərlə görüşləri davam edir.



Belə ki, Yeni Azərbaycan Partiyası tərəfindən 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi irəli sürülən Aytən Hüseynovanın seçicilərlə növbəti görüşü Bibiheybət qəsəbəsində olub. O, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illərdə Səbail rayonunda aparılan abadlıq-quruculuq işləri və infrastrukturun, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlər nəticəsində rayonun simasının tamamilə dəyişdiyini bildiriblər.

**MÜŞFİQƏ**

# Deputatlığa namizəd Musa Quliyev vətəndaş cəmiyyətinin nümayədələri ilə görüşüb









Yeni Azərbaycan Partiyasının (YAP) 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsindən deputatlığa namizədi Musa Quliyevin növbəti görüşü Gəncədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının fəalları ilə olub. Deputatlığa namizəd Musa Quliyev ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu sahəsində görülən işlər, qəbul olunan qanunlar, vətəndaş cəmiyyətinin inkişafı və hüquqları barədə məlumat verib, keçirilən bütün seçkilərdə vətəndaş cəmiyyəti üzvlərinin yüksək fəallığını təqdir edib.

Musa Quliyev, eyni zamanda, Azərbaycanın dünyada nüfuzunun və demokratik dövlət imicinin güclənməsində QHT sektorunun rolu və vəzifələri haqqında da öz fikirlərini söyləyib. Depuatlığa namizəd Yeni Azərbaycan Partiyasının vətəndaş cəmiyyətinin inkişafında aparıcı rolunu vurğulayıb, milli QHT-lər ilə əməkdaşlığa maraqlı olduğunu və onlara dəstək verdiyini də qeyd edib.

Görüşdə çıxış edən QHT fəalları vətəndaş cəmiyyətinin formalaşmasında və inkişafında cənab Prezident İlham Əliyevin dəstək və qayğısını həmişə hiss etdiklərini bildirib, parlament seçkilərində Yeni Azərbaycan Partiyasının kursunu birmənalı olaraq dəstəklədiklərini ifadə ediblər.

Görüş iştirakçıları YAP-ın namizədi Musa Quliyevin vətəndaş cəmiyyəti üzvləri ilə sıx, işgüzar əlaqələrini xüsusi olaraq qeyd edib və Milli Məclisdə onu öz təmsilçiləri olaraq gördüklərini bildiriblər.

# Yeni Azərbaycan Partiyasının 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən millət vəkilliyinə namizədi Müşviq Məmmədovun seçicilərlə görüşü keçirilib





Fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) namizədi Müşviq Məmmədovun Sumqayıt şəhərində seçicilərlə görüşü olub. Tədbiri giriş sözü ilə açan YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov sumqayıtlı seçicilərin seçki prosesində hər zaman fəal iştirak etdiyini diqqətə çatdırıb: **"Mən inanıram ki, hər zaman dövlətçiliyə bağlılıqları ilə seçilən Sumqayıt seçiciləri bu dəfə də "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər".**



Tədbirdə çıxış edən YAP-ın namizədi M.Məmmədov bildirib ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən Azərbaycan dövlətinin sosial-iqtisadi tərəqqi, beynəlxalq aləmə inteqrasiya siyasəti ölkəmizi böyük inkişaf yoluna çıxarıb: **"Azərbaycanın qazandığı nailiyyətlər, əldə olunan uğurlar gündən-günə artır. Aparılan islahatlar nəticəsində əhalinin həyat şəraiti yaxşılaşır, sosial problemlər həll edilir, şəhərlərimizdə geniş abadlıq-quruculuq işləri aparılır. Bu cür dinamik quruculuq dövründə Milli Məclisin üzvlüyünə namizədliyimin Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülməsi bu işlərdə daha yaxından iştirak etməyimə və sumqayıtlıların etimadını doğrultmağa şərait yaradır".**

Tədbirdə iştirak edən seçicilər YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# 102 saylı Samux-Şəmkir seçki dairəsindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Nizami Səfərov seçicilərlə görüşlərini davam etdirir






102 saylı Samux-Şəmkir seçki dairəsindən Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş Nizami Abdulla oğlu Səfərov Samux rayonunun Əhmədbəyli, Yuxarı Ağasbəyli, Aşağı Ağasbəyli kəndlərində və Şəmkir rayonunun Qaralar, Ağlavaşlı kəndlərində seçicilərlə görüşüb.

Görüşlərdə çıxış edən deputatlığa namizəd Nizami Səfərov qeyd edib ki, Azərbaycan Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub. **"Azərbaycanın dayanıqlı inkişafı təmin edilib, əhalinin rifahı davamlı olaraq yaxşılaşır, ölkəmiz sabitlik adası kimi tanınır. Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin rəhbərliyi ilə fəaliyyətini uğurla davam etdirir. Bütün seçkilərdə möhtəşəm qələbələr qazanmış partiyamız bu dəfə də seçicilərin böyük etimadı əsasında qalib olacaq",** - deyən N.Səfərov seçiciləri parlament seçkilərində fəal olmağa və YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Daha sonra çıxış edən seçicilər daim xalqın etimadını doğrultmuş Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər.